# YAVUZ AKPINAR TƏDQİQATLARINDA MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN KOMEDİYALARININ TƏHLİLİ

## ANALYSIS OF MIRZA FATALI AKHUNDZADA'S COMEDIES IN THE RESEARCHES BY YAVUZ AKPINAR

**Karimova Parvana Natig**[1]

**XÜLASƏ**

M.F.Axundzadə yaradıcılığı, bədii irsi dəfələrlə araşdırmalara cəlb olunmuş hər dəfə fərqli yanaşmalar yeni baxış tərzi ilə ədəbi mühitdə özünə yeni can qazanmışdır. Təkcə Azərbycanda deyil, Azərbaycandan kənarda bu sahə ilə məşğul olan tədqiqatçılar mövcud olmuşdur. Yavuz Akpınar Türkiyədə ilk dəfə M.F.Axundzadə irsini tədqiqata cəlb edən, ədəbiyyat xadimlərindən biridir. Tədqiqatçının araşdırmalarında M.F.Axundzadə irsi bütün yönləri ilə təhlil və tənqidin yeni çərçivələri daxilində öz təsdiqini tapmışdır. Təsadüfü deyil ki, araşdırmanın adı da "Mirzə Fətəli Axundzadə bütün yönləri ilə" adlandırılır. Lakin bugünkü, araşdırmamızın mövzusunu Axundzadənin bütün həyat və yaradıcılığına Yavuz Akpınar qələmi ilə olan yanaşmalara münasibətdən daha çox, komediyalara, təmsilata olan münasibəti zəminində ələ alacağıq. Bu günə qədər qoyulan məsələlərin mahiyyəti və genişliyini nəzərə alaraq deyə bilərik ki, heç bir tədqiqatçının yaradıcılığında M.F.Axundzadənin yaradıcılığı bu qədər əhatəli bir şəkildə tədqiqata cəlb edilməmişdir.

Tədqiqatçının komediyaların təhlili və tənqidi ilə bağlı ələ aldığı mövzuların əhatə dairəsi bir məqalənin həcmindən daha çoxunu əhatə etdiyindən qələmə aldığımız məqalədə, daha çox geniş həcmli və müzakirəsinin labüdlüyü baxımından əhəmiyyət daşıyan problemlər ələ alınacaq.

Komediyaların yaranma səbəbləri, müsbət və mənfi tiplər, fərdi eləcə də qarşılıqlı münasibətlər, batil inancların obrazların qismində dəyərəndirilməsi kimi bir çox məsələlər Yavuz Akpınar qələmindən təsnif olunmuşdur ki, araşdırma zamanı bu məsələlərə toxunulacaq. Sözsüz ki, Azərbaycan ədəbiyyatında Axundov yaradıcılığı, komediyaları fərqli zəminlərdə ələ alınmış burada qeyd edilən bir çox problemlər azərbaycanlı mütəfəkkirlər tərəfindən işıqlandırılmışdır. Bununla belə Yavuz Akpınarın yanaşmaları öz orijinallığı, obrazlara münasibətin təkrarsızlığı ilə şübhəsiz ki, tədqiqatçıların diqqətini çəkəcəyini düşünürəm. Eyni zamanda bu dissestasiya işinin müəllifin şəxsi kitabxanasından istifadə edilərək qələmə alındığını nəzərə alaraq, deyə bilərik ki, bu mövzu Azərbaycan ədəbiyyatında eləcə də Türkiyədə qələmə alınmış ilk tədqiqat hesab edilə bilər.

**Açar sözlər:** Yavuz Akpınar, M.F.Axundzadə, komediyalar, tədqiqat

**ABSTRACT**

Yavuz Akpinar is one of the literary figures researching completely for the first time M.F. Akhundzada's heritage within the new analysis and critism by involving them in research.

It is no coincidence that, the research is called as "Mirza Fatali Akhunduzada with all towards". But, we'll approach the subject of our research on the ground as attitude to the comedies, book of fables rather than the approach by Yavuz Akpinar to Akhundzada's all life and literary activities. Taking into account the essence and expanse of the matters put forward up to now we can say that, M.F. Akhundzada's literary activities has not been researched so comprehensively in the creative work of any researcher. 1 chapter and 3 subchapters in this chapter have been allocated only for the analysis of the comedies, and it offers all necessary facilities to lighten under the different aspects the analysis and criticism of the comedies by dividing them into the parts in these subchapters.

The scope of the subjects approached in regard with the analysis and criticism of the comedies of the researchers cover more than the scope of an article, so the issues larger and more important will be approached in the article written by us.

The causes of formation of the comedy, the positive and negative types, teh individual, as well as, the

[1] Baku Engineering University (Ph.D candidate) Email: perikerimova90@gmail.com

mutual relations, the matters such as valuation of the superstitious beliefs, images have been classified under Yavuz Akpinar's pen, and we'll touch upon these matters. Of course, Akhundov's literary acivities in Azerbaijan literature, his comedies, some issues approached here on different grounds have been lightened by Azerbaijani thinkers. Whereas, to my mind, Yavuz Akpinar's approaches will attract attention of the researchers with their originality, uniqueness. At the same time, taking into account that, this thesis has been written by using the personal library of the author, we can say that, it can be considered the first research written in Azerbaijani literature, as well as in Turkey.

**Key words:** Yavuz Akpinar, M.F.Akhundzada, comedies, research, criticism

**Giriş.**
M.F.Axundzadə yaradıcılığı, bədii irsi dəfələrlə araşdırmalara cəlb olunmuş hər dəfə fərqli yanaşmalar yeni baxış tərzi ilə ədəbi mühitdə özünə yeni can qazanmışdır. Təkcə Azərbaycanda deyil, Azərbaycandan kənarda bu sahə ilə məşğul olan tədqiqatçılar mövcud olmuşdur. Bu sahədə ən böyük addımlardan birini atan tədqiqatçı Yavuz Akpınardır ki, Mirzə Fətəli Axundzadə (Bütün yönləri ilə) doktorluq dissertasiyası təkcə türk ədəbiyyatında deyil eləcə də Azərbaycan ədəbiyyatında mühüm yer kəsb etdi. Təəssüf ki, bu tədqiqat əsəri qaranlıq işıqlar altında qalaraq araşdırmaya cəlb olunmamış, öz gizli xəzinəsini, əksini tapan fikirləri qoruyaraq hələ sovet hakim siyasətinin var olduğu bir dövrdən, əks etdirdiyi fikirlər və düşüncələr ilə, bugünkü günümüz üçün də aktual olan və hələ də mübahisəsini qoruyan məsələlərə işıq salmışdır.

Ümumilikdə, doktorluq işi IV fəsildən ibarət olub, III fəsil tamamilə komediyaların təhlil və tənqidinə həsr olunubdur. Üçüncü fəsildə komediyalar başlıca olaraq tiplərə, məhəlli həyata həsr olunaraq, teatr, zaman, məkan dil və bir çox xarakterik xüsusiyyətləri ətrafında birləşdirərək incələnmişdir.

Yavuz Akpınar "Mirzə Fətəli Axundzadə (Bütün yönləri ilə)" doktorluq dissertasiyasını yazaraq Azərbaycan ədəbiyyatına dəyərli bir töhfə bəxş etdi. Şübhəsiz deyə bilərik ki, təkcə türk ədəbiyyatında deyil eləcə də Azərbaycan ədəbiyyatında Mirzə Fətəli Axundzadə həyatı və yaradıcılığı nə qədər tədqiq edilsə belə, Yavuz Akpınarın tədqiqatı qədər geniş və əhatəli deyildir. İsa Həbibbəyli tədqiqatçının bu elmi əsərini yüksək qiymətləndirərək Türkiyədə Azərbaycan ədəbiyyatı haqqında yaranan mükəmməl elmi tədqiqat əsəri adlandırmaqla yanaşı, axundovşünaslığa böyük töhvə hesab edir.(Arağan.2018: 96)Tədqiqatın hər fəsli eyni zamanda hər fəsildə özünə yer etmiş maddələr, bəndlər haqqında ayrıca tədqiqat apararaq, tədqiqatçının fikirlərini müzakirə müstəvisində incələsək yeni fikirlərlə qarşılaşacağımıza şübhəm yoxdur. Dissertasiya ilə yaxından tanış olduğumuz zaman M.F.Axundzadənin istər fəlsəfi görüşləri, əsərlərində obrazların xarakterik xüsusiyyətləri, əlifba layihəsi, bütün əsərlərin təhlili, ədəbi tənqidi, dini fəlsəfi görüşlər və digər bir çox məsələdə fərqli fikirlərinin yanaşmalarının olduğunu gördük. Bu gün bizim əsasən ələ alacağımız mövzu dissertasiyanın üçüncü fəslinin əsasını təşkil edən komediyalarının təhlili və tənqidi məsələsi üzərində dayanacağıq.

III fəsil özlüyündə 3 yarımfəsilə bölünür ki, bu yarımfəsillər də daxilində sıra ilə 2,3və 4 hissəyə bölünür. Birinci yarımfəsildə tipləri mənfi və müsbət olaraq iki hissəyə bölürsə, 2-ci yarımfəsil fərdi, ictimai, cəhalət və batil etiqadlara bölünür. Sonuncu yarımfəsil daha çox teatr sahəsinə aid olub, məkan və zaman, səhnə, gülməli ünsürlərin qaynaqları və mahiyyəti, komediyanın dil xüsusiyyətləri kimi hissələri əhatə edir. Müəllif fəslin başlığını geniş qoymaqla komediyalara aid bütün araşdırmalarını bu fəsil altında toplamışdır. Bizim tədqiqatımız isə daha lakonik olub, tədqiqatçının birbaşa komediyaların tənqid və təhlili haqqındakı düşüncələrini ələ alacağıq. Bu fəsildə komediyalar haqqında ələ alınan digər düşüncələrə isə şübhəsiz ki, gələcək araşdırmalarımızda yenidən toxunacağıq.

1. **Obrazların təhlili zamanı yaranan yeni xaraterik cəhətlər.** İlk öncə bildirək ki, məqaləmiz M.F.Axudzadənin komediyalarının təhlilinə istiqamətlənsə də, çalışacağıq ki, təhlil zamanı ümumi mülahizələrdən kənar qaçaraq Yavuz Akpınarın obrazlarla bağlı gəldiyi qənaətlərin üzərində daha çox dayanaq. Şübhəsiz ki, F.Köçərlidən başlayaraq, A.Şaiq, M.Rəfili, Ə.Şərifov, F.Qasımzadə, M.Cəfərov, C.Cəfərov, Ə.Sultanlı, H.Əfəndiyev, Ə.Mirəhmədov, H.Məmmədzadə, N.Məmmədov, Y.Qarayev, Ş.Salmanov, A.Səfiyev, F.Füseynov, X.Əlimirzəyev, Z.Əsgərli, A.Məmmədov, B.Məmmədzadə və başqalarının tədqiqatlarında elmi monoqrafiya, kitab və məqalələrində bu mövzular əhəmiyyətli dərəcədə tədqiq edilmişdir. (Mehdiyeva, 2012:8) Araşdırmamızın əsas məqsədini müəllifin şəxsi

düşüncə zəminində formalaşaraq digər tədqiqatçıların fikirlərindən fərqlənib meydana çıxan fikirlərinə münasibət bildirərək tədqiq etmək və şəxsi zəminimizdən münasibət bildirmək tədqiqatımızın özəyini təşkil edən məsələlərdəndir.

Obrazlar aləmi, mənfi və müsbət tərəfləri, xarakterik xüsusiyyətləri, onların nəzdində yazıçının demək istədiyi və tədqiqatçının gəldiyi nəticələri incələyəcəyik. Azərbaycan ədəbiyyatında M.F.Axundzadənin komediyaları dəfələrlə tədqiq edilib, lakin, mən hələ ki, hansısa araşdırmanın nəzdində komediyalara baxışın Yavuz Akpınar aspektindən incələnməsinə rast gəlməmişəm. Zənnimcə Azərbaycanda aparılan tədqiqatlar zamanı bu tədqiqat əsərinə toxunulsa bir çox maraqlı fikirlər və mülahizələrlə qarşılaşacağıq. Tədqiqatçının özü ilə bu elmi əsəri haqqında danışarkən vurğuladığı əsas fikirlərdən biri yenidən əsəri tədqiq etmək imkanı olsa daha fərqli bir aspektdən fikir bildirəcəyi oldu. Tədqiqatımız zamanı bizi düşündürən eyni zamanda mühakimələrimizdə münasibət bildirmək istədiyimiz məsələlərdən birini bu nüans təşkil edir. Aradan keçən zaman müəllifin hansı fikirlərinin dəyişməsinə və ya hansı düşüncələrin yaranmasına səbəb olmuşdur.

Azərbaycan ədəbiyyatı sferasında aparılan araşdırmalara nəzər salsaq yanaşmalar və təhlillər arasında eynilik, obrazlar aləmi və əsərin daxili quruluşunda, təhlillər zamanı bir xətli davam edən münasibətlərlə qarşılaşarıq. Əsərlərdə əsas məsələlər konfliktlər nəzdində qarşılaşdırılır və əsərin ana xəttini təşkil edən məsələdən əlavə toxunulan problemlər diqqəti bir o qədər də çəkmir. Obrazların təhlili baş qəhrəmanların təhlili və xarakterlərinin açılması daha ön planda təqdim edilir. Qeyd edək ki, vurğuladığımız bu cəhətlər ümumiləşdirilmiş xarakter daşıyır və aparılan araşdırmların əsas hissəsini təşkil edir.

Yavuz Akpınarın araşdırmalarında isə Azərbaycanlı tədqiqatçıların fikirləri ilə yanaşı senzuradan kənar, müəllifin düşüncəsinin alt qatlarına enərək, onu ən incə ayrıntısına kimi duymuş, hiss etmiş, komediyaları hər tərəfli ələ almağı bacarmışdır. Zənnimcə məsələlərə bu aspektdən yanaşsaq oxucular üçün yeni, eyni zamanda faydalı məqamlara toxunmuş olarıq, hesab edirəm ki, bu yeni araşdırmaların başlanğıcı olacaqdır. Tədqiqatçının obrazlara yanaşması fərdi olub, əsərləri xronoloji ardıcıllığa əsasən incələyib, mənfi və müsbət olmaqla hər bir obrazın xarakterik xüsusiyyətini təqdim etmiş, zamanın tədqiqatçılarının obrazlar haqqında səsləndirdikləri mülahizələrə cavab verməklə yanaşı, maraqlı məqamlara toxunaraq bir çox diskusiya yaradacaq məsələnin də başlanğıcını qoymuşdur.

Qeyd etdiyim kimi daha çox tədqiqatçının araşdırmasında qarşılaşdığımız fərqli yanaşmaların üzərində durub, əsərləri xronoloji ardıcıllıqla deyil, diqqətimizi çəkən problemlər işığında aydınlatmağa çalışacağam. Müsyö Jordan komediyasında konflikt avamlıq və mövhumatın üzərində qurulmuş (Qasımzadə,1974:294), bu Azərbaycan ədəbiyyatında Məstəli Şah və Müsyö Jordan obrazını daha ön planda təhlilinə səbəb olmuşdur. Yavuz Akpınarda isə yanaşmalar bu cür qurulmur. Hər bir obraza ayrı-ayrılıqda diqqət yetirmiş, fikirləri ən incə ayrıntısına kimi obrazın daxilində axtarmışdır. Müəllif obrazları müsbət və mənfi, qadın və kişi obrazlara bölməklə yanaşı, əsas və köməkçi obrazlar qismində dəyərləndirir.

Maraqlı fikirləri özündə birləşdirən Şahbaz bəy obrazı ilə başlamaq istəyirəm, tədqiqatçının fikrincə Şahbaz bəy müsbət obrazdır və müəllifin fikirlərinin bir çoxunun ifadəsinə xidmət edir. İstər təhsilə önəm verməsi və ya qadın hüquqsuzluğunun ilk dəfə kişi obrazının dili ilə Şahbaz bəy vasitəsi ilə səsləndirilməsi buna sübut olacaq dəyərdədir. (Akpınar,1980:151) Bu fikrə Azərbaycanlı tədqiqatçıların arşadırmalarında da rast gəlirik. Müəllifin Şahbaz bəy obrazı haqqında təqdim etdiyi digər maraqlı bir fikir vətənpərvər obraz olaraq qiymətləndirməsidir. Şahbazın xaricdə təhsil almaq istəməsini vətənini sevməsi və ona xidmət kimi dəyərləndirir. Şahbazın təhsil alıb gəlmək istəməsinin kökündə əslində şəxsi arzular yatır. Bu baxımdan obrazın tam verilmədiyini bildirir. Təhsil almağı vətənə təhsilli gənclərin lazım olduğu düşüncəsi ilə istədiyini bildirir. Bu baxımdan tədqiqatçıya qatılmıram, Şahbaz bəyin əsas istəyi yaşıdları arasında sayılıb seçilmək arzusudur. Araşdırmacı özü də fərqinə varır ki, "Vətənpərvərlik", "xalqa xidmət" kimi düşüncələrin mühit üçün formalaşmış düşüncələr deyildi bunun üçün mühitin hələ yetişməmişdir. (Akpinar, 1980: 151) Aparılan bir sıra tədqiqatlarda Şahbaz müəllifin müsbət ideallarının, gələcəkdə görmək istədiyi gənclərin idealı kimi canlandırılsa da bu fikrin əleyhinə olan tədqiqatçılar da az deyil. C.Yusifli Şahbazı rupor-qəhrəman adlandırır. "Şahbaz bəy əsərdə müəllifin diqqətinə layiq ola biləcək xarakter deyil və müəllifi dərindən

maraqlandırmır..”(C.Y.Qobustan №3) Bu fikirlə razılaşa bilmərəm müəllif əsərdə obrazı idealizə etməsə də, dövr üçün görmək istədiyi, Azərbaycanlı gənclərin obrazı idi. Müəllifin digər əsərlərində də bu konsepsiyanı görmək mümkündür. Realizmin çərçivələrindən çıxmasa da dövr üçün mövcud olmayan, yazılı ədəbiyyatda yenilikçi obrazlar təqdim edir ki, onlardan biri də Səkinə xanım obrazıdır. Səkinə o dövrün qəhrəmanı deyildi. Lakin, yaradılmış bu obrazı təxəyyül məhsulu hesab etmək olmaz. Tədqiqatçı Səkinə xanımı real obraz adlandıraraq, şifahi xalq ədəbiyyatındakı ərəb Zəngi obrazı ilə müqayisə edir.(Akpınar,1980: 163)

Yazılı ədəbiyyatda isə bu obrazı ilk obraz hesab edərək, XIX əsrə qədər ki, Azərbaycan yazılı ədəbiyyatında öz haqları uğrunda mübarizə aparan ilk qadın qəhrəman obrazı hesab etmişdir(Akpinar,1980:163) Tədqiqatçı Axundzadə qələmi ilə azadlıq qazanan bu qadın qəhrəmanın o dövr üçün süni, ölçüsüz adlandırır (Akpinar,1980:164) Dediklərində şübhəsiz ki, haqlılıq payı var idi, bu obraz yazılı ədəbiyyatda ilk belə obraz olsa belə, başlanğıcını şihafi ədəbiyyatdan alaraq haqsızlığa qarşı çıxan ümumiləşmiş qadınların obrazıdır.

Müəllif yaratdığı obrazlarla yanaşı özü də hər zaman haqsızlığa qarşı çıxmış, dövrün problemlərini, naqis xarakterik xüsusiyyətləri, rüşvətxorluğu, rus məmurlarını tənqid atəşinə tutmuşdur. Böyük ustalıqla həcvlərində zaman və məkanı, obrazları dəyişdirərək hər zaman istifadə etmişdir. Yavuz Akpınar tədqiqatlarında həcv məsələsinə toxunaraq, təkcə üst zəmində görünən və dövrün tələblərinə uyun olaraq təhlil olunan savadsızlıq, kimyagər, mollalar, avamlığın doğurduğu nəticələri verməklə kifayətlənməmiş, eyni zamanda əsərlərin alt qatlarına enərək, müəllifin fikirlərinə işıq salmış, tənqidin əsas hədəflərini açıb göstərməkdən çəkinəmişdir.

Tədqiqatçı yazırdı, Kimyagərdə nuxulullar, kimyagərlər necə tənqid edilirdisə eyni zamanda İbrahim Xəlillə o dağlarda işləmək üçün heç bir araşdıra aparmadan icazə kağızı verən rus məmurlarını da tənqid atəşinə tutulur. Hacı Qarada, nə qədər Hacı Qaranın xəsisliyi tənqid olunur, rus məmurlarının ruşvətxorluğu, oğurluğu bir o qədər tənqid atəşinə tutulurdu. İşlədiyi vəzifə eyni zamanda rus sansürü səbəbi ilə əsərlərində əsasən məkan və zaman dəyişikliyi etsə belə həcv yazmaqdan geri çəkilmirdi. Onun tənqid hədəfinin əsasını rus idarəçiləri təşkil edirdi ki, ilk əsərindən etibarən bunu görmək mümkündür. Rus hökumətinin hər hansı bir araşdırma aparmadan verdiyi icazə kağızı əhalinin inamını və saxtakarlığın artmasına səbəb olmuşdur. Müsyö Jordan əsərində İranın idarəçiləri, vəzir Mirzə Ağanın əsgərlərin maaşını verməməsi, Lənkəran xanının vəzirində ictimai-siyasi idarə etmə sistemi tənqidin əsas obyektləri idi.

Yazıçının yumoristik tənqid hədəfində olan xəsislik Hacı Qara obrazı vasitəsi ilə təqdim edilir ki, bir sıra tədqiqatçılar müəllifin Hacı Qara əsəri ilə Molyerin Xəsis əsərini müqayisə edir və Hacı Qaranın Molyerin təsiri ilə yazıldığını dilə gətirirlər. Lakin, tədqiqatçı bütün bunlara cavab olaraq haqlı dəlillər gətirərək, əsərin Xəsis əsərindən fərqlənən orijinal əsər olduğunu təsdiqləyir. Harpoqon sürəti ilə Hacı Qaranı müqayisə etməyi doğru hesab etmədiyini bildirir.(Akpinar,1980.184) Hacı Qaranın xəsisliyi ictimai xüsusiyyətlər daşıyan, həqiqi insana aid xarakterik cəhətlərdir. Harpaqonda isə bu cəhətlər yoxdur.

Tədqiqatçının M.F.Axundzadə komediyalarında yer alan hər bir obraz haqqında səsləndirdiyi fikirlər var. Biz daha çox digər araşdırmalarda qarşılaşmadığımız fikirləri səsnləndirib, müqayisələr apardıq. Göründüyü kimi tədqiqatçı Axundzadə irsinə eləcə də komedialarına hər tərəfli yanaşmışdır. Bu araşdırma ümumilikdə türk dünyası üçün dəyərli bir əsərdir. Əlbəttə, Azərbaycan ədəbiyyatında bu məsələyə geniş rakursdan yanaşılmışdır lakin, işi dəyərli edən ən ümdə məsələlərdən biri odur ki, Yavuz Akpınar öz aspekti ilə yanaşı türk arsenalından münasibət bildirir. Sovetlər dövründə aparılan araşdırmalar təktərəfli eyni zamanda ziddiyyətli yanaşmalarla dolu idi. Təkcə dramaturji yaradıcılığında, əsərlərinin təhlilində əksini tapan fikirlər bizə bunu deməyə kifayət qədər əsas verir. Yavuz Akpınarın 1980-ci ildə apardığı tədqiqatları Azərbaycan ədəbiyyatında müstəqillik dövründə aparılmışdır. Söz yox ki, biz daha çox iş elmi aspektdən qiymətləndirdik, mənəvi dəyəri, ədəbiyyatımıza bəxş etdiyi dəyər və töhfə haqqında çox danışmaq olar.

Yavuz Akpınar tədqiqat işinə həssaslıqla yanaşaraq, əsərlərin təkcə məzmun və təhlillərini verməklə kifayətlənmir, eyni zamanda obrazlar aləmi, əsərin yazıldığı dövür və mühit, M.F. Axundzadənin

dramlarına senzuranın təsiri və bu təsirin nəticəsi ilə əsərlərdəki dəyişikliklər kimi ən incə məsələlərə kimi toxunur. Qeyd etmək lazımdır ki, bütün bunlar işin mükəmməlliyi və türk dünyasına tanıdılması baxımından olduqca mükəmməl bir işdir. Senzuranın təsiri ilə əsərdəki dəyişikliklər, onların səhnəyə qoyulması, ilk tamaşa haqqında xatirələr və eləcə də digər bir çox mətləb haqqında tədqiqatçının araşdırmasında rast gəlmək mümkündür. Məqalə əsərlərin təhlil və tənqidinə istiqamət aldığında, komediyalar haqqında digər məsələlərə münasibət bildirə bilmədik, lakin kiçik də olsa bu barədə vurğulamaq istərdik. Əhatə etdiyi mövzular və verilən məlumatların zənginliyi ilə bir çox tədqiqat işində rast gəlmədiyimiz məlumat və araşdırmalarla, fikirlərlə bu doktorluq tezində qarşılaşırıq.

**2. Yavuz Akpınarın dissertasiyaya tənqidi yanaşmalar.** Müsbət obrazlar ayrı-ayrı fərdi xarakterləri, xüsusiyyətləri verilmiş, lakin ümumiləşdirilmələr aparılmamış, eyni zamanda müəllifin istinad etdiyi hər hansı Azərbaycanlı tədqiqatçı ilə də arasında kompramistikaya səbəb olan bir fikir və ya diskusiyaya rast gəlmirik. Bu tədqiqat zamanı görmək istədiyimiz əsas xarakterik cəhətlərdən biri idi ki, düşünürəm bu işin dəyərini daha da artırardı. Əsasən Feyzulla Qasımzadə, Cəfər Cəfərov kimi tədqiqatçıların işinə istinad etmiş və hər hansısa bir fikir ayrılığına düşmədən, təsdiq və inkar prizması ilə işi yekunlaşdırmışdır. Vurğulamaq istədiyimiz məqam odur ki, müqayisə və müzakirələr aparmır. Qeyd etdiyi fikirlərin heç biri ilə diskusiyaya girmir.

Əlbəttə istərdik ki, Hacı Nuru, Müsyö Jordan, Məstəli Şah, İbrahimxəlil kimyagər eləcə də digər obrazlar haqqında mülahizələr irəli sürəndə Yaşar Qarayevin, Nadir Bayramovun, Nadir Məmmədovun, Feyzulla Qasımzadənin fikirlərini qeyd edərək şəxsi qənaətlərini bildirməyi işin səmərələliliyini və elmi dəyərini daha da artırardı. Bunu qeyd etməyimizin əsas səbəbi birinci odur ki, qeyd etdiyimiz müəlliflərin Axundzadə haqqında yazdığı məqalə və yazıları dissertasiya işindən öncəki illərdə qələmə alınmışdı, eyni zamanda Yavuz Akpınarın obraz haqqındakı düşüncələrinə zidd məqamlar var. Bir tək bu obraz yox ümumilikdə dramaturgiyasındakı bir çox obraz haqqında düşüncələrində zidd mövqelər var və müzakirə üçün əhəmiyyətli düşüncələrdir.

Əgər Yavuz Akpınar bu obrazın əhəmiyyətindən danışırsa əsər üçün elədə mühüm olmayıb gedişatda heç bir rol oynamadığını əsas gətirib əsərdə lazımsızlığı fikrini irəli sürənlər heç də azlıq təşkil etmir. Və ya Hatəmxan ağa obrazını müsbət planda təqdim edən tədqiqatçı fikri ilə razılaşmayıb onu mənfi obraz olaraq təqdim edən, eyni zamanda Yavuz Akpınarın Müsyö Jordanı müəllifin mənfi planda təqdim etdiyi fikrinə qarşı çıxıb obrazı müsbət planda təqdimini irəli çəkən tədqiqatçılar heç də azlıq təşkil etmir. Araşdırma sırasında bütün bu opptions fikirlərə ayrı-ayrılıqda münasibət bildirməyə çalışdıq. Lakin, qarşılıqlı müqayisələr olmadığından qeyd edilən fikirlərə münasibəti bizə tam aydın olmur. Müəllifin təsdiq və ya təkzib prinsipindən yanaşacağı bizi üçün qaranlıq məqam olaraq qalır. Tədqiqatçı ilə danışığımızda əsərdə etmək istədiyi dəyişikliyi bu prizmadan olduğu qənaətindəyəm. İlk öncə onu qeyd edək ki, fikir ayrılıqlarının olması, yanaşma tərzi arasında olan ziddiyyətlər normal bir hal olub fərqli düşüncə və həyata baxış tərzindən irəli gəlir. Bununla belə fikir ayrılıqları olsa da vahid bir nəzəriyyə ətrafında birləşmək elmin səmərəliliyi baxımından önəmlidir. M.F.Axundzadə dramaturgiyasını qərb və ya şərq müstəvisindən incələyir obrazların yaranmasında dünya ədəbiyyatı sənətkarlarının yaratdığı ölməz sənət inciləri il müqayisə edir. İlk əvvəl onu qeyd edək ki, təkcə Azərbaycan ədəbiyyatında yox ümumiyyətlə bütün ədəbiyyat nümunələrində bu deyilən cəhəti görmək əsərdəki hər hansısa bir obrazı bu və ya başqa bir cəhətinə görə bənzətmək və ya xarakterik bir cəhətini əsas gətirərək fərqləndirmək olar ki, bu da olduqca adi bir haldır.

**Nəticə.** Tədqiqatdan gəldiyimiz qənaət bu yöndədir ki, əsərin tədqiqi olduqca uğurlu alınıb, yeni fikirlər yanaşmalar, toxunduğu mövzular ilə digər əsərlərdən fərqlənən orijinal bir əsər ərsəyə gəlmişdir. Ümumilikdə məqalənin hər iki fəslində obrazlar haqqında eləcə də əsərdəki çatışmayan xarakterik cəhətləri qeyd etdik. Nəticə etibarı ilə deyə bilərik ki, əsərdə kifayət qədər müqayisələrin olmaması, fikirlərin fərdi aspektdən təqdim edilməsi nə qədər diqqətimiz çəkən cəhət olsa belə, bu əsərin orijinallığına və elmi dəyərinə heç bir xələl gətirməyibdir.

**Ədəbiyyat Siyahısı**

Akpınar Y. 1994.Azəri ədəbiyyatı araşdırmaları. Bengü

Akpınar Y. 1980. M.Fətəli Axundzadə.(Bütün yönləri ilə) dok.tez

Cəfərov C. 1968. M.F.Axundzadənin dramaturgiyası. Dramaturgiya və teatr. 2 cilddə, I s., Bakı

Qasımzadə F. 1974. XIX əsr Azərbaycan ədəbiyytı tarixi. Maarif nəşriyyatı. http://web2.anl.az:81/read/page.php?bibid=16360&pno=2

Muradov N, Özkaya Y. 2018 Yavuz Akpınar Armağanı.Armağan

Yusifli C. 1991. M.F.Axundzadənin maarifçi estetikası. Qobustan jurnalı № 3

AL-FARABİ INTERNATIONAL JOURNAL ON SOCIAL SCIENCES ★ 2016 ★